# BAKI DÖVLƏT UNİVERSİTETİNİN QAZAX FİLİALI

Bakı Dövlət Universitetinin Qazax filialının Direktorluğunun 17 yanvar 2023-cü il tarixli iclasının (Protokol № 1) qərarı ilə qəbul edilmişdir.

**TƏSDİQ EDİRƏM**

**Direktor ____________ Arif Rüstəmov**

**« 17 » « yanvar » 2023-cü il**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bakı Dövlət Universiteti Qazax filialı
Karakh branch of Baku State University, Ministry of Science and Education of Azerbaijan Republic

## “Pedaqoji fənlər” kafedrasının

# Ə S A S N A M Ə S İ

## I. ÜMUMİ MÜDDƏALAR

1.1. Kafedra BDU-nun Qazax filialının əsas tədris və elmi struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, tədris-metodiki, elmi-tədqiqat və təhsil alanlar arasında tərbiyə işlərini həyata keçirir.

1.2. Kafedranın əməkdaşları tədris prosesi ilə yanaşı müəyyən plana uyğun olaraq öz ixtisasları üzrə elmi tədqiqat işləri aparmağa və alınan nəticələri uyğun elmi jurnallarda çap etdirməyə mükəlləfdirlər.

1.3. Kafedranın kollektivi, Azərbaycan Respublikası qanunvericiliyinə, Təhsil Qanununa, BDU-nun Qazax filialının Əsasnaməsinə və kafedranın Əsasnaməsinə uyğun olaraq formalaşdırılır və fəaliyyət göstərir.

1.4. Kafedra, mövcud qaydada BDU-nun Elmi Şurasının qərarına əsasən yaradılır və ləğv edilir.

1.5. Kafedranın professor-müəllim heyətinin vəzifələrə seçilməsi bir qayda olaraq, mövcud Əsasnaməyə uyğun müsabiqə yolu ilə həyata keçirilir.

## II. KAFEDRAYA RƏHBƏRLİK

2.1. Kafedraya ümumi rəhbərlik, bir qayda olaraq elmi-dərəcəsi və elmi adı olan kafedra müdiri tərəfindən həyata keçirilir. Kafedra müdirinin ayrı-ayrı sahələr üzrə (tədris, elmi, tərbiyə və s.) ictimai əsaslarla müavinləri ola bilər.

2.2. Kafedranın kollektiv idarəetmə orqanı kafedra iclasıdır. Kafedra iclasları zərurət olduqda, ancaq ayda bir dəfədən gec olmayaraq (məzuniyyət dövrü istisna olunmaqla) çağırılır.

2.3. Kafedranın tərkibinə kafedra müdiri, professorlar, dosentlər, baş müəllim, müəllim və digər kateqoriyadan olan işçilər daxildirlər.

## III. KAFEDRANIN ƏSAS VƏZİFƏLƏRİ VƏ FUNKSİYALARI

3.1. Bütün təhsil formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin, laboratoriya işlərinin, praktiki, seminar və digər dərslərin yüksək elmi-nəzəri və metodiki səviyyədə aparılması;

3.2. Magistrlik dissertasiyalarına, buraxılış işlərinə, pedaqoji, tədris, elmi-pedaqoji və elmi-tədqiqat təcrübələrinə, tələbələrin sərbəst işlərinə rəhbərlik edilməsi;

3.3. Tələbələrin pedaqoji, tədris, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrinin təşkili və

keçirilməsinin təmin edilməsi;

3.4. Tədris ilinin imtahan sessiyası və Yekun Dövlət Attestasiyasının təşkili və həyata keçirilməsi işində iştirak;

3.5. Təhsilalanlar arasında tərbiyə işinin təşkili;

3.6. Elmi-tədqiqat işlərinin aparılması, tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik edilməsi;

3.7. Kafedra əməkdaşlarının tədris, tədris-metodiki, elmi və digər işlərinin, fərdi planlarının hazırlanması və həyata keçirilməsi.

## IV. KAFEDRA İCLASLARI

**4.1.** Kafedra iclaslarına digər ali məktəblərin, elmi-tədqiqat institutlarının, müəssisə və təşkilatların işçiləri də dəvət oluna bilər. Kafedra-iclaslarında qəbul olunan qərarlar barədə filialın direktorluğuna məlumat və ya təqdimatlar verir.

**4.2.** Kafedra iclaslarında aşağıdakı məsələlər müzakirə və təsdiq edilir:

- kafedranın bütün fəaliyyət növləri üzrə, eyni zamanda müəllimlərin, tədris-köməkçi heyətin, staj keçənlərin və fərdi planla təhsil alan tələbələrin plan və hesabatları;.
- kafedra tərəfindən tədris olunan kurslar üzrə tədris vəsaitləri, proqramlar, imtahan materialları;
- müəllimlərin tədris yükü və tədris yükünün bölünməsi;
- kafedra tərəfindən təşkil edilən seminarların, konfransların, sərgilərin və s. tematikası;
- kurs və buraxılış işlərinin, magistrlik dissertasiyalarının mövzusunun təsdiqi və onların müdafiəyə buraxılması, rəhbərlərin və rəy verənlərin təyini;
- elmi və metodiki işlərin nəşr olunma qaydalarına dair təqdimatların verilməsi:
- kafedra müdirinin müavinlərinin namizədliyi.

**4.3.** Kafedra, qarşısında duran vəzifələri yerinə yetirmək üçün öz səlahiyyətləri daxilində digər məsələləri də müzakirə edib müvafiq qərar çıxara bilər.

**4.4.** Kafedra iclaslarında aşağıdakı məsələlər barədə təklif, tövsiyə və ya təqdimatlar qəbul edilir:

- kafedra müdirinin seçilməsi;
- əməkdaşların doktoranturaya istiqamətləndirilməsi;
- magistr dissertasiyaların müdafiəyə qəbul edilməsi;
- elmi və tədris-metodiki əsərlərin nəşri;
- tələbələrin akademik borclarının ləğvinin təmin edilməsi üçün əlavə qruplarda müəyyən fənlərin tədrisi;

- işçilərin və təhsil alanların həvəsləndirilməsi və ya cəzalandırılması;
- kafedra müəllimlərinin və digər əməkdaşların tutduqları vəzifədən kənar edilməsi;
- digər təkliflər.

**4.5.** Kafedra iclaslarında qərarlar açıq və gizli səsvermə yolu ilə, sadə səs çoxluğu ilə qəbul edilir.Qərarlar qəbul edilərkən kafedra üzvlərindən birinin təklifi ilə gizli səsvermə aparıla bilər.

## V. KAFEDRA MÜDİRİNİN VƏZİFƏ VƏ SƏLAHİYYƏTLƏRİ

**5.1.** Kafedra müdiri: tədris, tədris-metodiki, elmi-pedaqoji, tələbələrlə iş də daxil olmaqla, kafedranın bütün fəaliyyətini təşkil etməklə yanaşı:

- kafedra iclaslarını çağırır, onlara sədrlik edir, onların qərarlarını təsdiq edir;
- hər il kafedranın fəaliyyəti barədə hesabat təqdim edir;
- kafedranın işini planlaşdırır və təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir;
- fakültədə, filialda, və digər universitetlərdə, kənar təşkilatlarda kafedranı təmsil edir;
- kafedra müdirinin müavinləri vəzifələrinə namizədlər təklif edir;
- kafedranın fəaliyyətinin nəticələrinə görə kafedranın kollektivi, Direktorluq və rəhbərlik qarşısında məsuliyyət daşıyır.

**5.2.** Kafedrada kargüzarlıq işinin mövcud qaydada təsdiq edilmiş nomenklaturaya uyğun olaraq aparılmasına nəzarət edır.